# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir




“Azərbaycanın qədim Gəncə şəhərinə hücum etmək Ermənistanın hüquq tanımayan və işğalçı simasının son nümunəsidir”.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa məxsusdur. Parlamentin rəhbəri məlum cinayət hadisəsi ilə bağlı sosial media hesabından paylaşımında bu sözləri yazıb: “Mülki əhaliyə qarşı törədilən bu hücumu şiddətlə qınayır, Vətən naminə qəhrəmancasına mübarizə aparan Azərbaycan Ordusuna müvəffəqiyyətlər diləyirəm. Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖




“Qardaş Azərbaycan xalqına keçmiş olsun diləklərimi çatdırır, haqlı davalarında yanlarında olduğumuzu xatırladıram”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Cümhuriyyət Xalq Partiyasının (CHP) rəhbəri Kamal Kılıçdaroğlu özünün rəsmi “Twitter” səhifəsində paylaşıb.

K.Kılıçdaroğlu bildirib: “Ermənistanın beynəlxalq hüquq normalarını pozaraq Azərbaycanın Gəncə şəhərinə və oradakı dinc əhalini hədəf alan xain hücumlarını şiddətlə qınayıram. Qardaş Azərbaycan xalqına keçmiş olsun diləklərimi çatdırır, haqlı davalarında yanlarında olduğumuzu xatırladıram”.

❖ ❖ ❖



“Ermənistanın Azərbaycanın ən böyük şəhərlərindən biri olan Gəncəyə xaincə hücum etməsi, dinc və günahsız soydaşlarımızı hədəf alması insanlığa qarşı cinayət, beynəlxalq hüququn açıqca tapdanması və inkar edilməsidir. Ermənistan zülm saçan üzünü bir daha göstərdi”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı bildirib.

D.Baxçalı deyib: “Bundan əlavə, Füzuli, Ağdam və Tərtərin yaşayış əraziləri Ermənistan tərəfindən artilleriya və raket atəşinə tutulub. Erməni dəstələri Azərbaycan qarşısında sıxışdıqca münaqişə bölgələrini mülki yaşayış məntəqələrinə qədər genişləndirirlər. Qatil erməni zehniyyəti əvvəllər etdiyini bu gün də vəhşicəsinə təkrarlayır. Ermənistan qəddardır, qatildir və töküldüyü qana qərq olacaq.

Cənubi Qafqazdakı sülh və sabitliyin yeganə düşməni Ermənistandır. Beynəlxalq ictimaiyyət artıq mülki vətəndaşlara qarşı qanlı və alçaq hücumlara biganə qalmamalıdır. Buradan şəhidlərimizə Allahdan rəhmət, yaralı soydaşlarımıza şəfa diləyirəm.

Unutmaq lazım deyil ki, Dağlıq Qarabağ türk yurdudur. Bu hüququn haqq sahibi ilə birləşməsi həyat bahasına olsa belə təmin edilməlidir. Qatil və terrorçu bir dövlət olan Ermənistanı nifrətlə qınayıram. İlanın başının mütləq əziləcəyinə inanıram.

Ayrı olan heç nəyimiz yoxdur, uzağımız yaxınımız yoxdur, iki dövlət bir millətik, eyni damarda axan qan, eyni bədəndə döyünən ürəyik. Birik, bərabərik, Türkiyə ilə Azərbaycanıq. Birlikdə biz böyük bir Türk millətiyik”.

❖ ❖ ❖



“Münaqişə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə ortaya çıxıb. Münaqişənin həllinin və uzunmüddətli sülhün yeganə və sadə yolu budur ki, təcavüzkar qüvvələr Azərbaycanın işğal altında olan torpaqlarından çıxmalıdır”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın yerli mediaya müsahibəsində ifadə edib. Gündəlikdə duran məsələləri dəyərləndirən dövlət rəsmisi Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və onun acı nəticələrinə geniş yer ayıraraq fikirlərini belə ifadə edib: “Ədalətə dayanmasa, uzunmüddətli sülhə nail olmaq mümkün deyil”.

Beynəlxalq münasibətlərdə bir böhranın illərlə davam etməsinin mütləq bundan bəhrələnmək istəyən bəzi qüvvələrə sərf etdiyini vurğulayan prezidentin müşaviri deyib ki, mövcud problem sadəcə Ermənistan ilə Azərbaycan arasında olsaydı, böyük ehtimalla münaqişə fərqli şəkillərdə daha əvvəl həllini tapa bilərdi.

Qarabağ məsələsinin həllinin Ermənistanın işğal altında olan Azərbaycan torpaqlarından qeyri-şərtsiz çəkilməsində olduğunu və bölgədə uzunmüddətli sülhün yaranmasının da buna bağlı olduğunu diqqətə çatdıran İbrahim Qalın deyib: “Azərbaycan Prezidenti İlham Əliyevin ortaya qoyduğu mövqeyi düzgün hesab edir və dəstəkləyirik. Çünki bu günlərdə dedi ki, əgər Ermənistan işğal etdiyi torpaqlardan çəkilərsə, dərhal atəşkəs olar, humanitar yardımlar çatdırılar və bölgəyə sabitlik gələr. Biz də Azərbaycanı bu təməl bazasında dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik”.

BMT və ATƏT-in qərar və qətnamələrində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu, eləcə də Ermənistanın Türkiyəyə əsasız iddia və ittihamlarının yersiz olduğunu, saxta təbliğat işləri fasiləsiz olaraq apardıqlarını vurğulayan İbrahim Kalın deyib: “Ermənilər belə bir rəy formalaşdırmağa çalışırlar ki, Qarabağda hər şey güllük və Gülüstanlıq içində olub. Türkiyə araya girməklə döyüşlər başlayıb. Bu deyilənlər tam əksindədir. Qarabağda illərdən bəri davam edən erməni işğalı var. Buna qarşı hər zaman Azərbaycan müqaviməti olub. Burada Türkiyənin mövqeyi və niyyəti bəllidir”.

Azərbaycanda F-16 qırıcılarının olması barədə xəbərləri uydurma, eləcə də Azərbaycan Ordusunun arsenalında pilotsuz silahlı aparatların (SİHA) mövcudluğunu normal hal kimi dəyərləndirən dövlət rəsmisi bildirib ki, başqa ölkələr milyardlarla dollar məbləğində silah satanda heç kəsin səsi çıxmır, Azərbaycanın öz müdafiəsi üçün silah almasında günah axtarmaq yersizdir.

İbrahim Kalın məntiqi mülahizələr və faktlarla əsaslandırıb ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və Türkiyəyə yersiz iddialarının təcavüzkar dövləti inkişafdan saxlayıb, rəzil və səfil halına salıb.

❖ ❖ ❖



Avropa Parlamentinin Latviyadan olan deputatı Sandra Kalniete sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təxribatlar barədə Latviyanın “TV24” telekanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibəsində xanım deputat böyük enerji infrastrukturunun mövcud olduğu regionda yaşanan son hadisələrin narahatlıq doğurduğunu bildirib.

O, Ermənistanın Dağlıq Qarabağla yanaşı, Azərbaycanın bir sıra digər rayonlarını da işğal etdiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün Minsk qrupu ölkələri, Avropa İttifaqı və BMT Təhlükəsizlik Şurası tərəfindən dəstəklənməsi beynəlxalq hüquqa uyğundur.

❖ ❖ ❖



Oktyabrın 3-də Azərbaycana həsr edilmiş silsilə proqramlar çərçivəsində Braziliya Konqresində Parlamentlərarası dostluq qrupunun rəhbəri, deputat Klaudio Kajadu “REBE TV” kanalına müsahibə verib.

Azərbaycanın Braziliyadakı Səfirliyindən AZƏRTAC-a bildirilib ki, müsahibədə deputat Parlamentlərarası diplomatiyanın rolu və əhəmiyyəti, Braziliya və Azərbaycanın qanunverici orqanları arasında münasibətlərin tarixi və mövcud vəziyyəti, iqtisadi əlaqələr, turizm potensialı və ölkəmizə səfərləri haqqında danışıb. Deputat Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar son vəziyyətlə bağlı bəyan edib ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir və münaqişə sülh yolu ilə, BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə əsasında həll edilməlidir. Son hərbi əməliyyatlar zamanı Azərbaycan tərəfindən mülki əhali və hərbçilər arasında itkilərin olduğunu təəssüflə qeyd edən deputat Minsk qrupu və beynəlxalq təşkilatların işinin fəallaşmasını və bir daha münaqişənin beynəlxalq qanunvericilik və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə əsasında həll olunmasını tələb edib. Müsahibə zamanı xüsusi ilə qeyd olunub ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin qəbulunda o zaman Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan Braziliya da fəal iştirak edib. Sonda münaqişəyə həsr edilmiş klip nümayiş edilib.

❖ ❖ ❖



Latviya Seyminin deputatı, Latviyanın ATƏT Parlament Assambleyasında daimi nümayəndə heyətinin üzvü Roman Naudinş 27 sentyabr tarixində törədilmiş erməni təxribatları ilə əlaqədar bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda Azərbaycanın Dağlıq Qarabağ və yeddi ətraf rayonunun 30 ilə yaxın işğal altında qalması, Azərbaycana qarşı həyata keçirilən etnik təmizləmə siyasəti, bir milyona yaxın soydaşımızın öz torpaqlarından qaçqın düşməsi, Xocalı soyqırımı, uzun illər sülh danışıqlarının bir nəticə verməməsi və münaqişəyə dair BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməməsi, habelə Ermənistanın hərbi-siyasi rəhbərliyinin son təxribatları, Azərbaycanın öz suverenliyi və beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün bərpası uğrunda əks-hücum əməliyyatlarına başlaması, Aİ-nin Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsində passivlik göstərməsi kimi fikirlər yer alıb, Ermənistanın işğalçılıq siyasəti dayandırılanadək bu ölkəyə beynəlxalq sanksiyaların tətbiqinə dair çağırış edilib.

❖ ❖ ❖



“Ermənistan silahlı birləşmələri Azərbaycanın qədim şəhərlərindən olan Gəncəni və dinc əhalinin raket atəşinə tutması çox acınacaqlı haldır. Ermənilər ön cəbhə ilə arxa cəbhə arasında fərq görmürlər, dinc əhalini əsgərdən ayıra bilmirlər, qadın, uşaq və qocaları öldürürlər. Bu terrordur, vəhşilik və insanlığa yaraşmayan, heç bir müharibə qanunlarına sığmayan qanlı cinayətdir”.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Qafqaz üzrə araşdırmaçı, tarixçi alim Quram Marxuliya söyləyib.

Onun sözlərinə görə, Ermənistan bu hərəkəti ilə beynəlxalq hüququn bütün norma və prinsiplərinin kobud şəkildə pozub.

Bunun da əsas səbəbi Ermənistan hakimiyyətinin bu günədək cəzasız qalmasıdır. Cəzasız qaldığı üçün Ermənistan daha da azğınlaşıb, insanlıq əleyhinə belə qanlı cinayətlər törədir.

Q.Marxuliya deyib ki, dinc insanları öldürmək erməni millətinin çoxdankı milli adətidir. Döyüşdə sarsıdıcı məğlubiyyətə uğrayan ermənilər geri çəkilərkən belə iyrənc əməllər törədir, dinc Azərbaycan əhalisini atəşə tutur.

“İndi əsas maraq doğuran məsələ ondadır ki, beynəlxalq ictimaiyyət, BMT və digər beynəlxalq təşkilatlar məsələyə necə münasibət bildirəcəklər. Əgər onlar yenə də sussalar, Azərbaycan rəhbərliyi adekvat addımlar atmağa məcbur olacaq və buna da haqqı var”, - deyə Q.Marxuliya vurğulayıb.

❖ ❖ ❖



Rusiya Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun elmi işçisi, politoloq Aleksandr Karavayev AZƏRTAC-a müsahibəsində ATƏT-in Minsk qrupunun fəaliyyəti, Türkiyə və Rusiyanın Qarabağ münaqişəsinin həllindəki rolu ilə bağlı fikirlərini bölüşüb.

- ATƏT-in Minsk qrupundan nəticə gözləmək olarmı?

- Demək çətindir. Ermənistanın yeni rəhbərliyi tərəfindən əvvəlki bütün razılaşmalar pozulub. Onlar yekun nəticələri tam düşünməyərək, işğal olunmuş ərazilərdəki sərhəddə və təmas xəttində sərt əməliyyatlarla uğur qazanmaq məqsədilə prosesi sürətləndirmək qərarına gəldilər. Əslində bu, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, hərbi əməliyyatları şərtləndirdi.

İndi ATƏT-in Minsk qrupu ölkələrinin fəaliyyəti göz qabağındadır. Cümə günü Cenevrədə Rusiya Təhlükəsizlik Şurasının rəhbəri N. Patruşev problemi ABŞ Prezidentinin Milli Təhlükəsizlik üzrə köməkçisi ilə müzakirə edib. Lakin nəticə yenə də ikitərəfli danışıqların bəhrəsi olacaq.

Bu gün deyil, 2000-ci illərin əvvəllərində BMT, ATƏT vasitəsilə danışıqların əvvəlki formalarının gücünü və kollektiv sənədlərin təsirini itirdiyi bir vəziyyət yarandı. İndi reallıqlar fərqlidir və bunlar ya əvvəlkilərin düzəldilməsini, ya da yeni parametrlərin, ehtimal ki, hərtərəfli razılaşma çərçivəsində qeyd edilməsini tələb edir.

- Sizcə Türkiyə və Rusiya münaqişənin həllində hansı rol oynayır?

- Rusiya, Türkiyə, Azərbaycan müxtəlif səviyyəli və miqyaslı üç dövlətdir, lakin üçlükdə maraqlarını genişləndirməkdədirlər. Bu münaqişəni yalnız onlar həll edə bilər.

Əslində, Yerevanda belə bir üçlü formatın güclənməsindən qorxurlar, buna görə də münaqişə problemləri ilə tanış olmayan rus publisistlərinin də bu mesajı tez bir zamanda götürüb inkişaf etdirəcəyini bildikləri üçün sivilizasiya toqquşması, “yaxşı və işıq” müharibəsi fikrini hiyləgərliklə gündəmə gətirdilər.

Paşinyanın başladığı ikinci iş isə Avropada yeni dəstək axtarmaq idi. Ən əlverişlisi Makron oldu. Fransa lideri Sarkozinin 2008-ci ildə Fransa Baş Nazirinin Gürcüstan və Rusiya arasında atəşkəs razılaşmasının uğurlu vasitəçisi və təşkilatçısı kimi çıxış etdiyi zaman Qafqazdakı uğurunu təkrarlamaq istətdi.

Lakin Makronun kifayət qədər təcrübəsi yox idi və dərhal reallıqları və ağırlaşma şərtlərini nəzərə almadan Prezident İlham Əliyevə tələblər irəli sürməyə başladı.

Bundan əlavə, Fransız nəşrləri Fransa Prezidentinin ofisinə istinadən Prezident Vladimir Putinin Navalnı ilə bağlı açıqlamalarından fraqmentlər dərc etdikdən sonra Makronun Rusiya ilə münasibətləri indi çox gərgindir. Bu amil ATƏT-in Minsk qrupunun işində ixtilaf rolunu oynayacaq.

Buna görə də, qabaqcadan düşünmədən, çıxış yolu tapmaq və Bakıya təklif irəli sürmək üçün əsl prosesin yalnız Ankara və Moskvadan gələ biləcəyini anlamaq çətin deyil. Əlbəttə ki, Qərb dünyasında və Yaxın Şərqdə hələ də əsas oyunçu kimi ABŞ-ın da rolu var.

- Rusiyada geniş media məkanında Azərbaycana münasibət dəyişibmi?

- Media hələ də bitərəfliyini mümkün qədər saxlamağa çalışır, çünki bu prinsipcə çətindir, amma fərqli motivlər və geniş məlumat axını yayılır, sadəcə təhlil etməyə vaxtları olmur.

Digər məsələ, türkofobiyanın nəzərəçarpacaq dərəcədə artmasıdır. Bu, ümumiyyətlə, bu mövzu ilə heç bir əlaqəsi olmayan, əvvəllər, ümumiyyətlə, fikirlərini ifadə etməyən publisistlərdən irəli gəlir. İndi də onların məhz daxili şüur istiqamətlənməsinin dərc edilməsi üçün əsas tapılıb. Bu, o deməkdir ki, son illər Rusiya cəmiyyətində Azərbaycanın imicini formalaşdırmaq üçün işlər davam etdirilməlidir. Bu da uzun yoldur.

❖ ❖ ❖



Məşhur erməni blogger Tiqran Köçəryan Ermənistanın baş naziri Nikol Paşinyanı Gəncəni vurmaq əmrini verməkdə ittiham edib.

AZƏRTAC xəbər verir ki, blogger özünün http://pigh.tv/?p=13 səhifəsində yerləşdirdiyi çağırışda Ermənistanın baş naziri Nikol Paşinyanı kəskin tənqid edərək, onu, faktiki olaraq Ermənistanın Dağlıq Qarabağ savaşında uduzmasında ittiham edib. O, Rusiyanın artıq Ermənistanı dəstəkləmədiyini bildirərək, Paşinyan hökumətinin Stepanakertdə (red. Xankəndi) rus hərbçilərinin olması barədə yalan şayiələr yaydığını iddia edib. Tiqran Köçəryan öz mənbələri vasitəsilə bu şayiələrin yalan olduğunu təsdiqləyib.

Blogger, həmçinin Dağlıq Qarabağın cənub cəbhəsində (red. Füzuli-Cəbrayıl istiqaməti nəzərdə tutulur) ermənilərin tam iflasa uğraması, yaralıları daşımaq üçün maşınların olmaması səbəbindən bir çoxunun ölməsi, cəbhənin şimal tərəfində (red. Ağdərə istiqaməti nəzərdə tutulur) isə döyüşlərə cəlb olunmuş muzdluların Azərbaycanın artilleriya həmləsinə tab gətirməyərək qaçması barədə yazıb. Ən maraqlısı isə, Tiqran Köçəryanın Nikol Paşinyanı Gəncəni vurmaq əmrini verməkdə ittiham etməsidir. Tiqran Köçəryan anlayır ki, bunun nəticəsində Ermənistanın şəhərlərini işğal olunmuş Xankəndinin bombalanması kimi aqibət gözləyə bilər.

❖ ❖ ❖

Azərbaycanın Belarusdakı səfirliyində Azərbaycan İcmaları Konqresi, Belarusda yaşayan vətəndaşlarımız və təhsil alan tələbələrimizin iştirakı ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü ilə bağlı görüş keçirilib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, səfir Lətif Qəndilov görüşün Belarusda yaşayan Azərbaycan diasporunun müraciəti əsasında keçirildiyini deyib, hər kəsdən konkret təkliflərini və fikirlərini söyləməyi xahiş edib.

Tədbirdə Azərbaycan İcmalar Konqresinin rəhbəri Natiq Bağırov çıxış edərək konqresin adından Silahlı Qüvvələrimizə dəstəyini ifadə edib, torpaqlarımızın azad olunmasından çox sevindiyini bildirib və bunun üçün Prezident İlham Əliyevə təşəkkürünü ifadə edib. O, Belarusda yaşayan azərbaycanlıların daim Silahlı Qüvvələrimizə imkanları çərçivəsində əllərindən gələn bütün köməyi göstərməyə hazır olduqlarını söyləyib. Belə ki, o, bir sıra azərbaycanlıların Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə vəsaiti köçürmək və orduya könüllü yazılmaq istədiklərini söyləyib.

Tədbirdə çıxış edən Dərya Hüseynova, Vüsal Qarayev, Cəmil Abbasov, Olesya Kasokina, Asəf Yusifov, Roman Lukasayev və Zakir Məmmədov Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə vəsaitinin toplanılmasının təşkil olunması ilə bərabər, orduya qida və dərman vasitələrinin göndərilməsini, Minskdə təhsil alan azərbaycanlı tələbələr və gənclərin ordu sıralarına könüllü yazılmaq istədiklərini qeyd edib, eyni zamanda, informasiya məkanında ermənilərin apardığı yalan təbliğatın qarşısını almaq məqsədilə “YouTube” və “Telegram” kanallarının yaradılması təşəbbüsü ilə çıxış ediblər. Digər iştirakçılar isə bir sıra mətbuat orqanlarında Dağlıq Qarabağda gedən döyüşlər barədə informasiyanın qeyri-obyektiv işıqlandırılmasına etirazlarını bildiriblər. Onlar azərbaycanlı ekspertlərin, təcrübəli politoloqların Belarus mətbuatında çıxış etmələrini təklif ediblər.

Səfirliyin hərbi attaşesi Elşən Rəhimov çıxış edərək cəbhədəki vəziyyət barədə məlumat verib.

L.Qəndilov orduya könüllü yazılmaq istəyənlərin səfirliyin hərbi attaşeliyinə müraciət etməsini, Belarus ictimaiyyətini Dağlıq Qarabağda gedən döyüşlərlə bağlı məlumatlandırmaq üçün IT sahəsində təcrübəsi olan 4-5 nəfərdən ibarət qrupların təşkil olunmasını təklif edib və bu məqsədlə “YouTube” və “Telegram” kanallarının yaradılması tövsiyə edib. Səfir, eyni zamanda, Belarus mətbuatında Ermənistan silahlı qüvvələrinin Azərbaycana hücumuna dair yayılmış məlumatlarda qeyri-obyektivliyə görə Belarus vətəndaşlarına informasiya vasitələrinə, müvafiq qurumlara etirazlarını bildirməyi tövsiyə edib. Bir Belarus vətəndaşı kimi bunun onların haqqı olduğunu söyləyib. Səfir L.Qəndilov hər kəsə yüksək vətənpərvərlik nümayiş etdirdiklərinə görə təşəkkürünü bildirib, orduya dərman və ərzaqla kömək etməkdənsə, Silahlı Qüvvələrin müvafiq hesablarına maliyyə vəsaitinin köçürülməsinin daha məqsədəuyğun olacağını söyləyib.

Tədbirin sonunda iştirakçılar hamı bir nəfər kimi Azərbaycanın Prezidenti İlham Əliyevə işğal olunmuş ərazilərimizin azad olunmasında göstərdiyi qətiyyətə və cəsarətə görə təşəkkürlərini bildirib, ona möhkəm cansağlığı diləyib və bu hərbi əməliyyatların sona qədər davam etdirilməsini arzu ediblər.

❖ ❖ ❖




“Torpaqlarımız azad olandan sonra danışıqlar mümkündür.

TV5-in aparıcısı: “Deməli siz qalib gələndən sonra?”

Səfir: “Bəli, şübhəsiz”.

TV5-in aparıcısı: “Deməli atəşkəs gözlənilmir”.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın TV5 Monde televiziya kanalında Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayevlə aparılan sual-cavabda səslənib.

“Bu gün müharibədir. Münaqişə yox, əsl müharibədir. Azərbaycan üçün Vətən müharibəsidir.

Azərbaycanın əks-hücum müharibəsinin məqsədi 1992-ci ildən işğal olunan torpaqlarımızı azad etməkdir. 1992-ci ildən Azərbaycanın 20 faiz ərazisi işğal altındadır. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi var ki, onların hər biri erməni silahlı qüvvələrinin Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayondan dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir”, - deyə səfir vurğulayıb.

R. Mustafayev bildirib ki, bu gün Azərbaycan beynəlxalq hüquq çərçivəsində hərəkət edir. Azərbaycanın məqsədi işğal altında olan torpaqlarını azad etməkdir. Torpaqlarımız azad olduqdan sonra Dağlıq Qarabağ tərəqqi edəcək və onun müxtəlif xalqlardan olan əhalisi Azərbaycanın vətəndaşlardır.

Qeyd edib ki, ATƏT-in Minsk qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransanın münaqişənin həllinə nail ola bilməməsi vəziyyəti bu dərəcəyə çatdırıb.

Rusiya ölkəmizin strateji tərəfdaşıdır və regionda stabilliyin olmasında maraqlıdır.

Türkiyəyə gəldikdə isə bu gün onun ölkəmizə dəstəyi beynəlxalq hüquq çərçivəsini aşmır. Türkiyə bizi mənəvi, siyasi baxımdan dəstəkləyir. Ancaq bu gün hələ hərbi dəstəkdən söz getmir. Əlbəttə, Türkiyə də strateji tərəfdaşımızdır. Ermənistandan fərqli olaraq Azərbaycan danışıqlar prosesinin formatına heç vaxt mane olmayıb. Ermənistan isə hər dəfə danışıqlar prosesinə mane olub.

Aparıcının danışıqlara başlamaq və atəşkəslə bağlı suallarına cavabında səfir deyib: “Azərbaycan işğal altında olan ərazilərini azad etməkdədir. Torpaqlarımız azad olduqdan sonra danışıqlara hazır olarıq.

Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonumuz azad olduqdan sonra atəşkəsdən danışmaq olar”.

Qeyd edək ki, Dağlıq Qarabağ haqqında məlumatla başlayan verilişdə səfir məlumatların səhv olduğunu bildirib.

❖ ❖ ❖

“Dağlıq Qarabağdakı vəziyyətin ağırlaşması bir sıra suallar doğurdu. Xüsusilə, Moskva niyə Ermənistana qoşulmağa tələsmir və niyə Azərbaycanı kəskin tənqid etmir. Cavab ondadır ki, Moskva ilə Bakını çox sıx münasibətlər bağlayır, özü də bu təkcə iqtisadi münasibətlər deyil. Bəs Azərbaycanın Rusiya üçün əhəmiyyəti və əvəzolunmaz xüsusiyyəti nədən ibarətdir?”

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın “VZQLYAD” şəbəkə nəşri yazır. Məqalədə Dağlıq Qarabağdakı münaqişənin Moskvada ciddi narahatlıqlara səbəb olduğunu qeyd edən Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzinin sözlərindən sitat gətirilir. “Bəli, Türkiyə birmənalı şəkildə Azərbaycanı dəstəkləyir. Ancaq bu o demək deyil ki, qarşı tərəfdəyik, Ermənistanı Azərbaycana qarşı dəstəkləyirik”, -deyə Rusiyanın BMT-dəki nümayəndəsi qeyd etdi.

“Rusiya Qarabağ münaqişəsində bitərəf, bərabər məsafəli bir mövqe tutur. Azərbaycan bizim üçün strateji baxımdan Ermənistandan daha az dəyərli deyil”, - deyə “VZQLYAD” qəzetinə verdiyi şərhdə hərbi ekspert, “Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko vurğulayıb. Bundan əlavə, həmsöhbət qeyd etdi ki, prezidentlər Vladimir Putin və İlham Əliyev arasındakı yaxşı şəxsi münasibətlər Rusiya-Azərbaycan təmaslarında mühüm amil oldu.

“İki dövlətin başçıları arasındakı münasibətlərdə “qarşılıqlı kimya” deyilən bir şey var - beynəlxalq təmaslarda vacib olan simpatiya, dəstək və mehribançılıq. Prezidentimiz təmkinli və diqqətli siyasətçidir, beynəlxalq siyasətdəki tərəfdaşlarının əksəriyyətini məsafədə saxlayır, buna görə də Əliyevlə yaxşı münasibətlər çox şeyə dəyər”, - deyə ekspert qeyd etdi. Buna misal olaraq, keçən ilin oktyabr ayında “Valday” Diskussiya Klubunda iki liderin səmimi ünsiyyəti və ortaq çıxışlarını göstərmək olar.

“Burada bioqrafik məqam vacibdir”, - deyə həmsöhbət ehtimal etdi. İndiki Azərbaycan Prezidentinin atası, respublikanın uzun illər ərzində lideri olan Heydər Əliyev və Vladimir Putinin ortaq iş yeri var idi. Heydər Əliyeviç kiçik leytenantdan Azərbaycan SSR DTK sədrinə qədər yüksələn dövlət təhlükəsizliyi zabiti idi, bundan sonra Siyasi Büroda və SSRİ Nazirlər Sovetində dövlət xadimi olaraq işə başladı.

“İlham Əliyev MDBMİ məzunudur, rus və ingilis dillərini mükəmməl dərəcədə bilir. Başqa bir şey, 2018-ci ilin “rəngli inqilabı” dalğasında hakimiyyətə gələn Ermənistanın lideri, baş nazir Nikol Paşinyandır”, - deyə ekspert hesab edir. Məncə, Əliyevlə Putin arasındakı şəxsi təmaslar, Putin və Paşinyan arasındakı təmaslardan bir pillə daha üstündür. Söhbət məhz ölkələrin liderləri səviyyəsində şəxsi qarşılıqlı əlaqədən getdiyini və dövlətlərarası münasibətlərdə Moskvanın həm İrəvan, həm də Bakıdan bərabər məsafədə uzaqda olduğunu (və ya əksinə, eyni məsafədə yaxın olduğunu) vurğuladı.

“Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvüdür, lakin, yeri gəlmişkən, Azərbaycan da bu təşkilatda müşahidəçi olmaq istəyini bildirib. İrəvan bu qərarı müzakirə edilmədən çox əvvəl blokladı”, -deyə ekspert qeyd etdi. “Ermənistan Rusiya silahlarını alır, amma Azərbaycan daha böyük həcmdə silahlarımızı alır. Bakının canlı pul ödəyən az sayda tərəfdaşlardan biri olması da az əhəmiyyət kəsb etmir. Azərbaycanın bu satınalmalar üçün maliyyə bazası var”, - deyə İ.Korotçenko qeyd edib. Ermənistan isə İrəvana Moskvanın verdiyi məqsədli kreditlər hesabına ödəyir.

“Son illərdə Rusiya Azərbaycana ümumilikdə dəyəri 5 milyard dollardan çox olan silah satıb. Bunlar reaktiv yaylım atəş sistemləri, ağır alovsaçan sistemləri, çoxlu miqdarda müasir tanklar və zirehli transportyorlar, həmçinin yeni nəsil S-300 kompleksləridir. Bir neçə ay əvvəl Rusiyanın yeni Su-35 və MiQ-35 qırıcılarının alınmasına Azərbaycanın maraq göstərdiyi barədə xəbərlər yayılmışdı”, - deyə ekspert xatırladıb.

Bundan əlavə, avqust ayının sonunda tərəflər qarşılıqlı səfər ediblər. Müdafiə naziri Sergey Şoyqu Bakıya, Azərbaycan Xarici İşlər Nazirliyinin yeni rəhbəri Ceyhun Bayramov ertəsi gün Moskvaya səfər edib.

❖ ❖ ❖




Avstriyadakı səfirliyimiz “Twitter” mikrobloqunda Avstriya Parlamentində Cənubi Qafqaz üzrə qrupun hazırda Azərbaycanda baş verən hadisələrlə bağlı düzgün məlumatlı olmamaqda qınayıb.

AZƏRTAC xəbər verir ki, səfirliyin tvitində ilk olaraq son günlərdə baş verən hadisələrə nəzər salınıb, sentyabrın 27-dən bəri Ermənistanın təcavüzü nəticəsində 20 mülki şəxsin həlak olduğu və 70-dən artıq şəxsin yaralandığı, yaşayış məntəqələri və mülki infrastruktura ciddi zərər dəydiyi qeyd edilib.

Həmçinin bildirilib ki, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə edərək regional sülh və sabitliyə böyük təhlükə törədən Ermənistanın hərbi təcavüzü və Ermənistan qoşunlarının Azərbaycanda mövcudluğuna son qoymaq məqsədilə müvafiq tədbirlər görməyə məcbur oldu. Azərbaycan daha öz ərazilərinin Ermənistan tərəfindən işğalına və onun apardığı təxribatlara dözmək istəmir. Azərbaycanın bu məqsədə nail olmaq üçün peşəkar və yüksək təlim görmüş ordusu vardır və öz ərazilərini erməni işğalçı qoşunlarından təmizləmək üçün Azərbaycanın nə muzdlulara, nə də digər dövlətlərin yardımına ehtiyacı yoxdur.

Daha sonra qeyd edilib ki, oktyabrın 4-də Ermənistan döyüş meydanlarından uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəni raketlərlə atəşə tutub. Bu zaman Ermənistanın məqsədi döyüşləri öz dövlət ərazisinədək genişləndirmək və bu yolla da üçüncü dövlət və təşkilatları münaqişəyə cəlb etməkdir. Bu addım beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə pislənməlidir.

Səfirliyin məlumatında Avstriya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Qudrun Kuqlerin Ermənistan və Azərbaycan münaqişəsinə dair bəyanatının da təəssüf doğurduğu qeyd edilib. Bildirilib ki, deputat Q. Kuqlerin bəyanatının onun həqiqətən də nə baş verməsi barədə ətraflı məlumatının olmadığı təəssüratını yaradır. Səfirlik Ermənistanla əlaqədar Kuqlerin təqdim etdiyi tarixi fiksiya və siyasi dəyərləndirmənin qəbuledilməz olduğunu ifadə edib.

Parlamentarinin diqqətinə çatdırılıb ki, ondan fərqli olaraq Alman Bundestaqında Cənubi Qafqaz üzrə parlament qrupunun rəhbəri Barbara Hendriks bu münaqişədə beynəlxalq hüququn birmənalı şəkildə Azərbaycanın tərəfində olduğunu və Ermənistanın bu münaqişə ilə əlaqədar regionda beynəlxalq hüququn tətbiqini qəbul etmir.

Yekunda qeyd edilib ki, Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov dəfələrlə deputat Q. Kuqlerə baş verən ən yeni hadisələr barədə ilkin mənbədən məlumatın əldə edilməsi üçün Avstriya-Cənubi Qafqaz parlament qrupunun üzvləri ilə videokonfrans keçirilməsini təşkil etmək təklifini verib. Səfirlik bu təklifi ictimai şəkildə elan etməklə, parlament qrupunu videokonfransa dəvət edib.